

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır.*

# ŞƏRQ QAPISI

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 10 (19.924)

19 yanvar 2010-cu il, çərşənbə axşamı

**Gündəlik ictimai-siyasi qəzet**

E-mail:serqqapisi@nakhchivan.az

Qiyməti 20 qəpik



### Günün sözü

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. İstəyirik ki, beynəlxalq hüquq normaları tətbiq olunsun, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın və 1 milyondan artıq soydaşımız öz doğma torpaqlarına qayıda bilsin. Ancaq, eyni zamanda, biz güclü ordu yaratmalıyıq. Güclü hərbi potensial yaratmalıyıq ki, istənilən anda öz doğma torpaqlarımızı azad edə bilək. Ölkəmiz bölgədə lider dövlətə çevrilib. İqtisadi potensialımız artır. Beynəlxalq aləmdə siyasi çəkimiz və nüfuzumuz artır. Ordumuz da güclənir. O, daha da güclü olmalı və istənilən anda torpaqlarımızın azad olunmasında iştirak etməlidir. Bizim siyasətimiz bundan ibarətdir. Mən sevinirəm ki, Azərbaycanda həm ordumuzun maddi-texniki bazası möhkəmlənir, həm də peşəkar ordu kadrları yetişir.

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

## Azadlığa, müstəqilliyə gedən yolun başlanğıcı

*19 yanvar 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Soveti SSRİ-nin tərkibindən çıxmaq barədə qərar qəbul edib*

***Bütün bəşəriyyətin həyat təcrübəsinə istinad edən tarix keçilmiş yolun, yaşanmış həyatın güzgüsüdür. O, bir tərəfdən gələcək həyatımızın hərəkət istiqamətlərini və inkişaf konturlarını bir xəritə kimi özündə əks etdirirsə, digər tərəfdən gələcək həyat üçün ibrət dərsi rolunu oynayır. Bu baxımdan bir millət kimi öz tarixi keçmişini öyrənmədən, bilmədən bu günlə yaşamaq, gələcəyi qurmağa cəhd etmək, əgər zərərli nəticələrə səbəb olmasa belə, ən yaxşı halda heç bir uğur vəd etmir. Digər tərəfdən, bəşəriyyətin inkişafında baş vermiş dəyişiklikləri dərk etməkdə tarix ən yaxşı tərbiyəçidir.***

Azərbaycan tarixinin ən yaxın keçmişində baş vermiş hadisələrin öyrənilməsi daha qədim tarixi mərhələlərin öyrənilməsindən heç də az əhəmiyyət kəsb etmir. Bu baxımdan 90-cı illərin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində baş vermiş hadisələr öz aktuallığını, bu gün olduğu kimi, əsrlər boyu da qoruyacaqdır.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində, müstəqillik ab-havasının duyulduğu,

*Ardı 2-ci səhifədə*

*19 yanvar 1993-cü ildə Azərbaycan Respublikasının Dövlət gerbi təsdiq edilib*

## Müstəqilliyimizin simvolu–Azərbaycan Respublikasının Dövlət gerbi

*Gerbimiz dövlətimizin varlığını sübut edən bir nişanə, vətəndaşların milli birliyinin rəmzidir*

***Hər bir insanın qəlbində ana kimi müqəddəs, ülvi bir hiss yaşayır. Bu, vətənə olan sevgi hissi, doğma torpağa olan məhəbbət duyğusudur. Vətənimiz Azərbaycanda doğulmaq, yaşamaq, işləmək, yaratmaq, onu kirpik gözü qoruyan kimi qorumaq, sevmək və bu sevgi uğrunda canından belə keçmək hər bir yurddaşımızın həyat amalıdır. Azad olmayan vətəndə azad vətəndaş da ola bilməz. Bu, çox böyük çətinliklərlə qazanılsa da, bu gün vətənimiz Azərbaycan müstəqildir, azad, suveren bir dövlətdir. Qısa müddət ərzində müstəqil Azərbaycan siyasi, sosial-iqtisadi, mədəni sahələrdə böyük nailiyyətlər qazanmışdır. Azərbaycanın dövlət müstəqilliyi, dövlətçilik atributları xalqımızın tarixi nailiyyətidir. Hər bir vətəndaş üçün öz dövlətinin bayrağının mavi səmalarda dalğalandığını görmək, dövlət himninin sədasını duymaq, əlbəttə ki, ən böyük fəxr hissidir. Azərbaycan xalqı çox xoşbəxt bir xalqdır ki, bu böyük nemətə–müstəqilliyə sahibdir. Aylı-ulduzlu üçrəngli bayrağımıza, Dövlət gerbimizə baxdıqca, himnimizin sədasını eşitdikcə qürur duyuruq, qəlbimiz gülür. Çünki onlar var olduqca xalqımız ucadır, azaddır, ölkəmiz müstəqildir.***

Hələ lap qədim dövrlərdə cəmiyyətdə insan həm fərdi, həm də qrup səviyyəsində müxtəlif rəmzlərdən istifadə etmişdir. Bayraq və gerblərdəki simvollar da bu tip müəyyənləşdirici amillərdir. Gerb Avropa mənşəli söz olub, hərfi mənası "vərəsəlik", müasir dövlətçilik termini kimi isə müəyyən bir dövlətin, şəhərin, nəslin fərqləndirici rəmzi anlamında işlədilir. Müstəqil Azərbaycan Respublikasının dövlətçilik atributlarından biri olan gerbimiz dövlətimizin varlığını sübut edən, qürur duyduğumuz bir nişanədir. Ölkə vətəndaşlarının milli birliyinin rəmzidir.

*Ardı 3-cü səhifədə*

## Bankların iqtisadiyyatın inkişafında rolu artır

*Ötən gün Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsində 2009-cu ildə görülən işlər, 2010-cu ildə qarşıda duran vəzifələrin həlli yollarının müəyyən edilməsi ilə bağlı iclas keçirilmişdir. İclasda idarənin sədri Səbuhi Məmmədov "Bankların iqtisadiyyatın inkişafında rolu artır" mövzusunda məruzəsi dinlənilmişdir. Qeyd olunmuşdur ki, 30 iyul 2009-cu il tarixdə üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun "2009-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları haqqında" məruzəsində və 2009-cu ilin ikinci yarısında qarşıda duran vəzifələrlə əlaqədar muxtar respublika ərazisində fəaliyyət göstərən bankların qarşısında bir sıra vəzifələr qoyulmuşdur.*

2009-cu ildə muxtar respublikada sosial-iqtisadi həyat inkişaf etməkdə davam etmiş, bütün sahələrdə, sənaye, əsaslı tikinti, kənd təsərrüfatı, istehsal və xidmət sahələrində yüksək nailiyyətlər əldə olunmuşdur.

Bu nailiyyətlərin əldə olunmasında iqtisadiyyatın aparıcı qüvvələrindən biri olan bankların da rolu artmışdır. 2009-cu il ərzində banklar tərəfindən açılmış bank hesablarının aktiv fəaliyyətə cəlb olunması, əsassız nağd hesablaşmaların aradan qaldırılması, fiziki və hüquqi şəxslərdə olan sərbəst pul vəsaitlərinin əmanət və depozit şəklində banklara cəlb edilməsi,

*Ardı 5-ci səhifədə*

## Yüksək həyat tərzinin başlıca amili iqtisadiyyatın inkişafıdır

*Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr və 2009-cu ilin yekunları ilə bağlı kollegiya iclası keçirilmişdir. İqtisadi inkişaf naziri Famil Seyidov çıxış edərək bildirmişdir ki, 2009-cu ilin 11 ayında muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət maliyyə dəstəyi ilə 93 layihə üzrə istehsal və xidmət sahələri istifadəyə verilmiş, 34 layihə üzrə istehsal sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Belə ki, yeyinti sənayesi üzrə 34, yüngül sənaye üzrə 12, tikinti materiallarının istehsalı üzrə 5, kimya sənayesi üzrə 2 müəssisə, kənd təsərrüfatı üzrə, o cümlədən 15 quşçuluq təsərrüfatı, 5 balıqçılıq təsərrüfatı, 1 bağçılıq təsərrüfatı, 1 üzümçülük təsərrüfatı, 45 fermer təsərrüfatı, 17 xidmət sahəsi qurularaq və ya genişləndirilərək istifadəyə verilmişdir.*

Bəhs olunan dövrdə bütün maliyyə mənbələri hesabına muxtar respublikada 367 milyon 139 min manat həcmində əsas kapitala investisiya yönəldilmişdir ki, bu da 2008-ci ilin müvafiq dövründəki 271 milyon manatlıq investisiya ilə müqayisədə 96 milyon manat və ya 36 faiz artım deməkdir.

2009-cu ildə Sahibkarlığa Kömək Fondunun vəsaiti dövlət büdcəsindən sahibkarlığa investisiya yardımı maddəsində nəzərdə tutulmuş vəsaitdən 6.000.000,0 manat və fondun dövriyyəsindən qaytarılan əsas kredit və kredit faizi hesabına olan 14.836.651 manat (bundan 10.210.000,0 manatı müqavilədə nəzərdə tutulmuş müddətdən öncə qaytarılmış vəsaitlər) daxil olmaqla, cəmi 20.856.651 manat təşkil etmişdir.

Son dövrlər aparılan məqsədyönlü tədbirlər muxtar respublikanın xarici ticarət dövriyyəsinin strukturunun və istiqamətinin genişlənməsinə səbəb olmuşdur. 2009-cu ilin 11 ayı ərzində 30-dan çox xarici dövlətlə aparılan ticarət əməliyyatları nəticəsində 149 milyon ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Bu isə ötən ilin müvafiq dövrünə nisbətən 63 faiz çoxdur.

Xarici ticarət dövriyyəsində diqqəti cəlb edən mühüm xüsusiyyət ondan ibarətdir ki, muxtar respublikada daxili tələbatın ödənilməsində yerli məhsulların xüsusi çəkisinin artması müqabilində xaricdən sənaye, kənd təsərrüfatı, ərzaq məhsullarının idxalı xeyli azalmış, ixracı isə əhəmiyyətli dərəcədə artmışdır. 2009-cu ilin 11 ayı ərzində ixracın həcminin idxalı üstələyərək son 1 ildə 2 dəfə artması 9 milyon 240 min ABŞ dolları həcmində müsbət saldo yaratmışdır. İdxalın strukturunda isə ciddi dəyişiklik baş vermiş, ərzaq məhsullarının idxalının getdikcə azalması, bunun əvəzində isə texnoloji avadanlıqların idxalının artması müşahidə edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Əzəmət HƏSƏNOV**

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV:** *Ötən əsrin 90-cı illərində–bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır. 1990-cı il yanvarın 18-də SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə muxtar respublikanın Kərki kəndi ermənilər tərəfindən işğal olunandan sonra, yanvarın 19-da Naxçıvan Ali Soveti "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələni müzakirəyə çıxarmış, "Naxçıvanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından və beynəlxalq Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan" Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etmişdir. Qeyd etmək lazımdır ki, bu qərar Sovetlər Birliyinin dağılması, Azərbaycan xalqının və digər müttəfiq respublikaların xalqlarının suverenlik əldə etməsi üçün atılmış ilk addımlardan idi.*

# Azadlığa, müstəqilliyə gedən yolun başlanğıcı

*19 yanvar 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Soveti SSRİ-nin tərkibindən çıxmaq barədə qərar qəbul edib*

*Əvvəli 1-ci səhifədə*

lakin eyni zamanda, kəskin ictimai-siyasi ziddiyyətlərin, gərgin geopolitik və ölkədaxili hadisələrin yaşandığı bir vaxtda Naxçıvan milli-azadlıq hərəkatının mərkəzinə çevrilmişdi. 1989-cu ilin iyul-sentyabr aylarında rəsmi Moskvanın ermənipərəst mövqeyinə etiraz edən Culfa dəmiryolçularının uzunmüddətli tətili o zaman son mövcudluq dövrünü yaşayan keçmiş sovet imperiyasının bütövlükdə dəmiryolu nəqliyyatını iflic vəziyyətinə salmışdı. Bunun ardınca 1989-cu il dekabr ayının 31-də İranla olan sərhəddə, 1990-cı ilin yanvar ayının 7-də isə 11 kilometrlik Türkiyə sərhədində mühəndis-texniki qurğuların naxçıvanlılar tərəfindən sökülməsi Azərbaycanın müasir tarixinə "Sərhəd hərəkatı" adı ilə yazıldı.

Bu zaman Azərbaycanda, o cümlədən Naxçıvanda cərəyan edən hadisələrə həmişə fitnəkar mövqedən yanaşan sovet mətbuatı "Sərhəd hərəkatı"na da analoji münasibət göstərdi. Hətta, hadisələrlə əlaqədar Naxçıvana gəlmiş sovet partiya məmurları A.Girenko, R.Nişanov və o zamankı antimilli Azərbaycan rəhbəri Ə.Vəzirov 1990-cı il yanvarın 5-də naxçıvanlılarla görüşdə bir fikir, Moskvaya qayıtdıqdan sonra isə tamam fərqli fikir söyləmiş, imperiya maraqlarından çıxış edərək sərhəd hadisələrini "bir qrup narkomanın və xuliqanın qanunsuz hərəkətləri" kimi xarakterizə etmiş, xalqımızda imperiyaya nifrəti daha da artırmışdılar. Nəticədə SSRİ Ali Soveti Rəyasət Heyəti "SSRİ-nin Dövlət Sərhədi haqqında Qanunun Naxçıvan MSSR ərazisində kobud surətdə pozulması barədə" 10 yanvar 1990-cı ildə qərar qəbul etdi. "SSRİ Ali Sovetinin Rəyasət Heyəti Naxçıvan MSSR ərazisində SSRİ-nin dövlət sərhədi rayonunda kütləvi iğtişaşlar və şuluqluqlar məsələsini nəzərdən keçirərək" qısa müddətdə sərhəd qurğularının bərpa edilməsini lazım bildi. Buna baxmayaraq xalqımız öz iradəsinə uyğun olaraq imperialist dövlətlərin müəllifi olduğu tarixi ədalətsizliyin aradan qaldırılması istiqamətində çox mühüm addımlar atdı.

Ə.Vəzirov respublikada gedən proseslərə nəzarəti itirdiyindən, daha doğrusu, antimilli mövqedən çıxış edərək və imperiya maraqlarını qoruyaraq 1989-cu il dekabrın 10-da respublikada ictimai-siyasi vəziyyətin kəskinləşməsi barədə, dekabrın 26-da isə kömək göndərilməsi haqqında şifrəli teleqramlarla Moskvaya müraciət etdi. Bundan sonra antiazərbaycan mövqeli imperiya rəhbərliyi Azərbaycanda milli azadlıq hərəkatını boğmaq üçün həm əlverişli siyasi şərait, həm də hüquqi bəhanə əldə etdi. 1990-cı il yanvar ayının ilk günlərindən hökumət dairələri "ssenarisi" əvvəlcədən hazırlanmış planın icrasına başladılar.

İmperiya rəhbərliyi Azərbaycan paytaxtında milli azadlıq hərəkatını boğmaq məqsədilə hazırladığı "Tayfun" ("Qasırğa") təxribat planını yanvarın 13-dən icra etməyə başladığı bir vaxtda ermənilərin Naxçıvanla sərhədlərə güclü hərbi texnika və silahlı dəstələr topladığı müşahidə olunurdu. Buna görə də naxçıvanlılar Sədərəkdə ermənilərin hücum planının qarşısını almaq üçün müəyyən hazırlıq işlərini görürdülər. Lakin bir müddət əvvəl naxçıvanlılardan hətta ov silahlarının da yığılması, habelə ermənilərə rus hərbçilərinin hərbi sursat və canlı qüvvə baxımından ciddi kömək etmələri səbəbindən hərbi münaqişədə qüvvələr nisbətinin ermənilərin xeyrinə olacağı aydın idi.

1990-cı il yanvarın ortalarında Azərbaycanda yaranan faktiki hakimiyyətsizlikdən və xalq hərəkatının məhvi üçün imperiya planlarının uğurla həyata keçirilməsindən istifadə edən erməni quldurları böyük qüvvə və hərbi texnika ilə Naxçıvana təcavüzə başladılar. Bakıda və Azərbaycanın digər rayonlarında sovet ordusunun törətdiyi qanlı cinayətlərlə Naxçıvana erməni hücumunun zaman etibarı ilə üst-üstə düşməsi hadisələrin eyni mərkəzdən idarə edildiyini sübut edirdi. Hətta, ermənilərin Naxçıvana hücumunun Bakıda 20 Yanvar faciəsinin törədilməsindən bir gündən də tez baş verməsi həm Bakı faciəsinin, həm də Naxçıvanın işğalına edilən cəhdin eyni düşmən planının tərkib hissəsi olduğuna, bu planı imperiya rəhbərliyi ilə ermənilərin birgə hazırladıqlarına şübhə yeri qoymurdu.

Erməni quldurlarının muxtar respublikaya ilk mütəşəkkil hücumu 1990-cı il yanvarın 18-dən 25-dək Sədərək kəndi istiqamətində oldu. Əvvəlcə düşmənin içərisində qalmış Azərbaycan kəndi Kərki işğal olundu. Yanvarın 18-də rus ordusunun köməyilə kəndin sonuncu sakinlərini də öz torpağından didərgin salan ermənilər Sədərəyə basqın etdilər. Naxçıvandakı Sovet ordu hissələri isə təcavüzə seyrçi mövqedən yanaşdılar. 1918-1920-ci illərdə olduğu kimi, yenə də Azərbaycan hökumətindən kömək ala bilməyən Naxçıvan əhalisi ayrı-ayrı adamlarda qalan ov tüfəngləri ilə qeyri-bərabər döyüşə başladılar. Bir neçə gün fasiləsiz davam edən qanlı döyüşlərdə misilsiz igidliklə müdafiə olunan naxçıvanlılar düşməni geri oturda bildilər. Bu döyüşlərdə Naxçıvan torpağı ilk şəhidlərini verdi, çoxlu sayda yaralananlar oldu. Məhərrəm Seyidov, Etibar Əhmədov, Mirhəşim Seyidov, Məhəmməd Məmmədov, İdris Məmmədov, Abbasəli Nəzərəliyev Naxçıvanın ilk şəhidləri oldular. Sədərəkli iki azyaşlı uşaq–Elvin və Malik Nəsirovlar evlərinə düşən mərmidən həyatla vidalaşdılar.

Bu zaman Sovet ordusu Bakını işğal etdikdən sonra imperiya rəhbərliyi ardı-arası kəsilmədən Naxçıvana zəng vurur, muxtar respublikada fövqəladə vəziyyət tətbiq etməyi tələb edirdilər. Təqdirəlayiq hal idi ki, bu ağır günlərdə muxtar respublika rəhbərliyi xalqla həmrəy olaraq onun mənafeyi əleyhinə olan Moskvanın bütün tələblərini rədd edirdi.

1990-cı ilin yanvarında Azərbaycan xalqının milli istiqlaliyyət ideallarını qan içində boğmaq istəyən imperiya qəsbkarlarının son nəticədə öz məqsədlərinə nail ola bilməməsi SSRİ-nin tənəzzül dövrünü yaşadığını və bu dövrü uzatmaq üçün bütün qanlı cinayətlərə və irticaya əl atdığını göstərirdi. Yaranmış ağır şəraitdə Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. İmperiya boyunduruğundan azad olmaq üçün 19 yanvar 1990-cı il tarixdə qəbul edilən "Naxçıvan MSSR-də ictimai-siyasi vəziyyət haqqında" qərar bu bölgədə xalqla rəhbərliyin vahid mövqedən çıxış etməsinin göstəricisi olmaq etibarilə mühüm bir tarixi addım idi. Naxçıvana erməni hərbi təcavüzü və bu qərar barədə Naxçıvan televiziyası ilə bütün dünyaya bir neçə dildə informasiya verildi. Beləliklə, Naxçıvan Ali Sovetinin düzgün addımı nəticəsində rus-erməni planı kimi hazırlanmış irticaya gələcəkdə hüquqi don geyindirmək üçün vacib olan fövqəladə vəziyyət tətbiq edilmədi və əhali qırğından xilas ola bildi.

Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 85 illik yubileyi münasibəti ilə keçirilən təntənəli yığıncaqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov həmin dövrü Azərbaycanın tarixi ərazisi olan Naxçıvanın qorunub saxlanılmasında mühüm mərhələ kimi dəyərləndirərək demişdir: **"Ötən əsrin 90-cı illərində–bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır. 1990-cı il yanvarın 18-də SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə muxtar respublikanın Kərki kəndi ermənilər tərəfindən işğal olunandan sonra, yanvarın 19-da Naxçıvan Ali Soveti "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələni müzakirəyə çıxarmış, "Naxçıvanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından və beynəlxalq Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan" Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etmişdir. Qeyd etmək lazımdır ki, bu qərar Sovetlər Birliyinin dağılması, Azərbaycan xalqının və digər müttəfiq respublikaların xalqlarının suverenlik əldə etməsi üçün atılmış ilk addımlardan idi".**

İmperiya rəhbərliyi və onun mövqeyinə xidmət edən o zamankı Azərbaycan rəhbərliyi Naxçıvan Ali Sovetinin qərarının imperiya və respublika konstitusiyalarına uyğun gəlmədiyindən qanunsuz olduğunu elan etsələr də, artıq bu qərarla tariximizin mühüm bir səhifəsi yazılmış və bir vaxtlar dünyanı idarə edən iki qütbün birində dayanan nəhəng Sovetlər Birliyinin məhz bu qərarla qaniçən xisləti və süquta doğru getdiyi sübut edilmişdi.

Bütün dünyada böyük əks-səda doğurmuş bu mühüm qərar həmin dövrdə respublikanın əsas hissəsi ilə bütün informasiya-kommunikasiya əlaqələri tamamilə kəsilmiş Naxçıvana erməni təcavüzünün qarşısının alınmasında da müəyyən stimulverici bir amil oldu. Sədərəkdə düşmənlə ölüm-dirim savaşına girən naxçıvanlıların qeyri-bərabər döyüşdə erməniləri geri oturtması Naxçıvanın müstəqillik yolunda inamla irəlilədiyini sübut etdi. Yanvar hadisələrindən sonra Bakıda və bir sıra rayonlarda tətbiq edilən fövqəladə vəziyyət rejimi məhz bu dövrdə naxçıvanlıların torpaqlarımızın qorunması uğrunda rəşadətli mübarizəsi və həmin tarixi qərarın doğurduğu siyasi ab-hava nəticəsində muxtar respublikada tətbiq oluna bilmədi.

Demokratik hərəkatın bütün mərhələlərində onun öncüllərindən olmuş Naxçıvan torpağı və əhalisi bu dövrdə də xüsusi fəallıq göstərdi. Mahiyyətcə 1989-cu ildə muxtar respublikanın mərkəzi Naxçıvanda keçirilən mitinq və nümayişlərin, dəmiryolçuların bütün ölkəni silkələyən tətillərinin, "Sərhəd hərəkatı"nın məntiqi davamı olan Naxçıvan Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli qərarı tariximizin 20 il əvvəlki mərhələsinin şərəfli səhifəsini təşkil edir.

*Beləliklə, Azərbaycanda bir çox faciəli hadisələrin baş verməsi ilə tarixə düşən 1990-cı ilin ilk ayı həm müstəqilliyimizin ilk tarixi, həm də bu istiqamətdə rəsmi sənədin qəbul olunduğu tarixi yaddaş dövrünə çevrildi. Bu tarixi sənəd artıq müstəqillik yolunda 20 illik çətin və qürurlu bir yol keçmiş müstəqil Azərbaycanın bugünkü siyasi həyatında mühüm bir mərhələ, qanunauyğun və fərəhverici tarixi nümunə rolunu oynayır, gələcəkdə də oynayacaqdır.*

Elman CƏFƏRLİ
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix elmləri namizədi***

*Hüquqi maarifləndirmə*

***H**üquqi maarifləndirmə inkişaf etmiş cəmiyyətlərdə bütün dövrlərdə aktuallığını saxlayır. Ona görə ki, hər bir vətəndaş öz hüququnu bilməlidir. Son illər muxtar respublikamızda bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi diqqət mərkəzindədir. Bu işdə kütləvi informasiya vasitələrinin üzərinə də mühüm vəzifələr düşür. Bunu nəzərə alaraq qəzetimizin səhifələrində hüquqi maarifləndirməyə geniş yer verilir və oxucuların suallarını cavablandırırıq.*

***-Qanunla on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət nəzərdə tutulurmu?***

***Bəxtiyar QULİYEV***
***Şahbuz şəhər sakini***

-On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar zərər vurulmasına gətirib çıxarmış mülki hüquq pozuntusu üçün ümumi əsaslarla müstəqil surətdə məsuliyyət daşıyırlar.

On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı olmadıqda zərərin hamısını və ya çatışmayan hissəsini onun valideynləri (övladlığa götürənlər) və ya himayəçisi, zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr ödəməlidirlər.

Əgər on dörd yaşından on səkkiz yaşınadək olan və himayəçiliyə ehtiyac duyan yetkinlik yaşına çatmayan müvafiq tərbiyəçiliyə, müalicə müəssisəsində və ya qanuna görə onun himayəçisi olan digər oxşar müəssisədə olmuşdursa, həmin müəssisə zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, zərərin hamısını və ya çatışmayan hissəsini ödəməyə borcludur.



Valideynlərin (övladlığa götürənlərin) və müvafiq müəssisənin on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın vurduğu zərərin əvəzini yetkinlik yaşına çatdıqdan sonra zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı yarandıqda və ya yetkinlik yaşına çatanadək fəaliyyət qabiliyyəti əldə etdikdə xitam verilir.

***-Torpaq sahəsi üzərində birgə hüquqlar hansı hallarda yaranır?***

***Əsgər ƏSGƏROV***
***Naxçıvan şəhəri***

-Torpaq Məcəlləsinin 52-ci maddəsinə əsasən, torpaq sahəsi üzərində birgə hüquqlar iki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahəsi olduqda, habelə mülkiyyətçi, istifadəçi və icarəçi arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanan müqavilə əsasında onlara məxsus olan torpaq sahələrinin birləşdirilməsi zamanı yaranır.

İki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində olan torpaq sahəsi həmin şəxslərin birgə mülkiyyət, birgə istifadə və birgə icarə hüququna məxsus ola bilər. Birgə mülkiyyətdə olan torpaq sahələrinə sahiblik, onlardan istifadə və onlar barəsində sərəncam verilməsi Mülki Məcəllənin birgə mülkiyyət hüququ haqqında müddəalarına uyğun olaraq həyata keçirilir.

***-Mülkiyyət hüququnun məhdudlaşdırılması hansı hallarda ola bilər?***

***Fatma KƏRİMOVA***
***Şərur rayonu***

-Mülki Məcəllənin 169-cu maddəsinə əsasən, bu Məcəllədə müəyyənləşdirilmiş hallarda mülkiyyət hüququ məhdudlaşdırıla bilər.

Hər bir daşınmaz əmlak mülkiyyətçisi, əgər quyuların qazılması, drenaj, qaz və başqa boruların, habelə yerüstü və yeraltı elektrik xətlərinin çəkilməsi onun torpaq sahəsindən istifadə edilmədən qətiyyən mümkün deyilsə və ya hədsiz məsrəflər hesabına mümkündürsə, bununla əlaqədar dəyən zərərin əvəzinin qabaqcadan ödənilməsi şərtilə həmin tədbirlərin həyata keçirilməsinə icazə verməlidir.

Yüklü torpaq sahəsinin mülkiyyətçisi öz mənafelərinin ədalətlə nəzərə alınması hüququna malikdir. Yerüstü xətlərin çəkildiyi hallarda, əgər fövqəladə hallar əsas verirsə, o tələb edilə bilər ki, həmin xəttin keçdiyi ağlabatan həcmdə torpaq sahəsi tam əvəzi ödənilməklə ondan ayrılsın.

Əgər şərait dəyişərsə mülkiyyətçi xəttin onun mənafeyinə uyğun çəkilməsini tələb edə bilər. Çəkilmənin dəyərini ixtiyarlı şəxs ödəməlidir. Lakin xüsusi halların əsas verdiyi yerlərdə dəyərin ağlabatan hissəsi mülkiyyətçinin hesabına ola bilər.

***Dəfn üçün müavinət necə təyin olunur?***

***Sevda QULİYEVA***
***Naxçıvan şəhər sakini***

Dəfn üçün müavinət işçi vəfat etdikdə və ya onun himayəsində olan aşağıdakı ailə üzvləri öldükdə verilir:

arvadı (əri);

18 yaşına çatmamış və ya əmək qabiliyyəti olmayan uşaqları, qardaşları və bacıları (yaşından asılı olmayaraq);

valideynləri;

babası və nənəsi.

Yaşamaq üçün müstəqil yaşayış mənbəyinə malik olan (əməkhaqqı, pensiya alan və sair) ailə üzvləri himayədə olan sayılmır.

İşçi vəfat etdikdə dəfn üçün müavinət mərhumun yaşayış yeri üzrə Dövlət Sosial Müdafiə Fondu orqanları tərəfindən onun ailə üzvlərinə və ya onu dəfn etməyi öhdəsinə götürən şəxslərə verilir.

Dəfn üçün müavinət qanunvericilikdə müəyyən olunmuş qaydada və məbləğdə verilir və müavinəti almaq üçün müraciət müddəti məhdudlaşdırılmır. Pensiyaçı vəfat etdikdə dəfn üçün müavinət Dövlət Sosial Müdafiə Fondu orqanları tərəfindən ödənilir.

Ali və orta ixtisas məktəblərində, magistraturada (aspiranturada), kliniki ordinaturada və ya texniki peşə məktəblərində təhsil alan şəxsin özü, yaxud onun ailə üzvü vəfat etdikdə dəfn üçün müavinət işçiyə verilən qaydada və miqdarda verilir.

Hal-hazırda dəfn üçün müavinətin məbləği 50 manat təşkil edir.

# Əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına hərtərəfli şərait yaradılmışdır

***M**uxtar respublikanın ayrı-ayrı bölgələrində olduğu kimi, Naxçıvan şəhərində də abonentlərin etibarlı elektrik enerjisi ilə təmin olunması üçün kompleks tədbirlər həyata keçirilmişdir.*

Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyevdən aldığımız məlumata görə, Heydər Əliyev prospektində, Atatürk, Şadlinski, İstiqlal, Təbriz küçələrində, Əliabad qəsəbəsində və Qoçüstü məhəlləsindəki ictimai yaşayış binalarına yeraltı kabel xətlərinin çəkilişi başa çatdırılmışdır. Quruculuq tədbirləri ilə əlaqədar olaraq İlqar Ələkbərov küçəsində 10 kilovoltluq hava xətti ləğv edilmiş, ayrı-ayrı ünvanlarda elektrik verilişi xətti çəkilmiş və ya yeraltı kabellə əvəz edilmişdir. Eyni zamanda, müxtəlif gücə malik 31 ədəd yeni transformator yarımstansiyası quraşdırılmış, 1 ədəd 250 kva gücündə transformator 400 kva gücündə, 1 ədəd 250 kva gücündə transformator 630 kva gücündə və 2 ədəd 400 kva gücündə transformator isə 630 kva gücündə transformatorla əvəz edilmişdir. Bundan başqa, qəza hallarını yaradan 10 kilovoltluq kabellər və 30-a yaxın yarımstansiyada kabel qidalandırıcı xətlər keçid izolyatorları ilə əvəz edilmişdir.

Naxçıvan şəhərində yaradılan ecazkar mənzərəni daha da zənginləşdirən yeni işıqlandırma dirəklərinin quraşdırılması da diqqət mərkəzində saxlanılmışdır. Təkcə bir faktı qeyd edək ki, son iki ildə ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan prospektdə, Atatürk, İstiqlal, Şadlinski, Əziz Əliyev, Cəlil Məmmədquluzadə, Nizami, Sabir, İdris Məmmədov, Bektaşi, Azərbaycan və Əliqulu Qəmküsər küçələrində, Əcəmi məhəlləsində, Naxçıvan Beynəlxalq Hava Limanına və dəmiryol vağzalına gedən avtomobil yollarının kənarında, ümumilikdə 410 ədəd yeni işıqlandırma dirəkləri quraşdırılmışdır. Həmçinin, işıqlandırma xətti çəkilmiş, park və xiyabanlarda xətlərin dəyişdirilməsi və bərpası ilə əlaqədar işlər aparılmışdır. Ötən dövrdə də bu istiqamətdə işlər uğurla davam etdirilmiş, Əlincə məhəlləsində, Zərifə Əliyeva və Sabir küçələrində, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin və Naxçıvan Dövlət Universitetinin həyətində, Naxçıvan-Sədərək magistral yolunun və magistral yoldan Duzdağ Fizioterapiya Xəstəxanasına gedən avtomobil yolunun kənarında 234 ədəd işıqlandırma dirəyi quraşdırılmış, elektrik xətti çəkilmişdir. Ümumilikdə, ötən ilin 11 ayında 16,4 kilometr uzunluğunda 10 kilovoltluq, 40,5 kilometr uzunluğunda isə 0,4 kilovoltluq elektrik hava xətləri çəkilmiş, 128 ədəd transformator yarımstansiyasında cari təmir işləri aparılaraq saz vəziyyətə gətirilmişdir.

Elektrik enerjisindən səmərəli istifadə olunması bir tərəfdən abonentlərin ailə büdcəsinə qənaət etməsinə əlverişli şərait yaratmaqla bərabər, digər tərəfdən də elektrik avadanlıqlarının tez sıradan çıxmasının qarşısını alır, qidalandırıcı yüksək gərginlik xətlərində əmələ gələn itkilərin və elektrik avadanlıqlarında yüklənmə əmsallarının aşağı düşməsinə səbəb olur. Elə bunun nəticəsidir ki, ötən ilin 11 ayında 4 ədəd 400 kva və 2 ədəd 600 kva gücündə transformator yarımstansiyası xətdən ayrılmışdır.

**Kərəm HƏSƏNOV**

# Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə mütəşəkkilliklə həyata keçirilir

***A**rxada qoyduğumuz 2009-cu il ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin hüquq-mühafizə fəaliyyəti ölkəmizin iqtisadi mənafeyinin və təhlükəsizliyinin qorunmasına, bütün qüvvələr səfərbər edilməklə qaçaqmalçılığın və gömrük sahəsində digər hüquqpozma hallarının qarşısının alınmasına yönəlmişdir.*

Gömrük əməkdaşları ölkədə dini sabitliyə mənfi təsir göstərən müxtəlif adda 1167 nüsxə dini kitab, 316 ədəd dini broşür, 205 ədəd dini CD və audio kasetlər, eləcə də Ermənistan Respublikasına məxsus 25 ədəd metal sikkə, düşmən ölkədə yerləşən otellərə aid 26 ədəd reklam xarakterli broşür, insan sağlamlığı, ictimai asayiş və ətraf mühit üçün ciddi fəsadlar törədən 3132 ədəd partlayıcı fişəng, 224 kq əkinə yararlı çətənə toxumu, bundan əlavə, idxalına və dövriyyəsinə qadağa qoyulan, eləcə də təyinatına görə soyuq silah xarakteri daşıyan vasitələrə qarşı mübarizə tədbirləri davam etdirilmiş, sərhədi keçən vətəndaşlardan 14 ədəd beşbarmaq müsadirə olunmuşdur.

Bir sıra xəstəliklərin yayılmasına şərait yaradan 79 kiloqram rəngli sellofan torba, habelə 158 litr üzüm sirkəsi, 70 şüşə limon suyu saxlanılaraq məhv edilmək üçün götürülmüşdür.

Vaxtı ötmüş malların muxtar respublika ərazisinə idxalına qarşı sərhəd keçid məntəqələrində həyata keçirilən tədbirlər nəticəsində müxtəlif adda dərman preparatlarının, şimiyyat, şokalad, kolbasa, meyvə şirəsi və sair malların satış və ya istehlak dövriyyəsinə yol tapmasına imkan verilməmişdir.

Gömrük əməkdaşları yeni ilin gəlişi münasibəti ilə daxili bazarın öyrənilməsi, insan sağlamlığına təhlükə törədə bilən keyfiyyətsiz məhsulların dövriyyədən çıxarılması istiqamətində gücləndirilmiş iş rejimində fəaliyyət göstərmişlər. Bayram reydləri ilə əlaqədar olaraq satış dövriyyəsindən çıxarılan 28 adda malın ümumi dəyəri 2800 manatdan artıq olmuşdur.

Ötən həftə sonu Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları il ərzində aşkarlanaraq saxlanılmış bu malları yaşayış məntəqələrindən kənar ərazidə yandıraraq məhv etmişlər.

**Rahil TAHİRLİ**

# Uşaqların şəxsiyyətinin formalaşmasında valideynlərin və fiziki tərbiyənin rolu

***N**axçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin və şəhər təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhər 4 nömrəli orta məktəbdə "Uşaqların şəxsiyyətinin formalaşmasında valideynlərin və fiziki tərbiyənin rolu" mövzusunda tədbir keçirilmişdir.*

IX-XI sinif şagirdlərinin, pedaqoji kollektivin və valideynlərin iştirak etdiyi tədbiri məktəbin direktoru Sevda Məmmədova açmış və belə tədbirlərin mahiyyəti barədə danışmışdır. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik İdarəsinin yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun baş inspektoru, polis polkovnik-leytenantı Yulət Əliyevin və polis mayoru Mübariz Yaqubovun çıxışları dinlənilmişdir. Qeyd olunmuşdur ki, uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəzedilməzdir. Ailədə və cəmiyyətdə yetkinlik yaşına çatmayanlara göstərilən münasibət hər şeydən əvvəl onlarda müsbət keyfiyyətlərin formalaşmasına səbəb olur. Məhz buna görə də ailə onların davranışlarında yaranan mənfi halların qarşısının alınmasında əsas vasitə kimi çıxış edir.

Tərbiyə sistemində humanistlik, uşağın şəxsiyyətinə hörmət, ehtiram, ona diqqət və qayğı hökm sürməlidir. Təlim-tərbiyə prosesi zamanı uşaqların şəxsiyyətinə mənfi münasibətlərin yol verilməməsinə çalışılmalıdır.

Sonda nazirliyin əməkdaşları iştirakçıları maraqlandıran sualları cavablandırmışlar.

**Nuray ƏSGƏROVA**

